# O, sözün qüdrətinə əmindir

**Ofelya Mədətqızını 30 ilə yaxındır tanıyıram. İlk şeirini redaksiyaya göndərmişdi. Şeir xoşuma gəldi və müəllifin həyat tarixçəsi ilə maraqlandım. Sonralar hər dəfə onu görəndə, haqqında söhbət düşəndə tanınmış Sovet yazıçısı Nikolay Alekseyeviç Ostrovskini xatırlayırdım. Taleləri qismən də olsa oxşarlıq yaradır. Hər ikisi təsadüf nəticəsində əlil olub, az qala həyatdan əllərini üzmək istəyiblər. Lakin ağır, üzüntülü anlarında əlahəzrət Söz, qəlbləri fəth edən ədəbiyyat, poetik dünyanın ecazkarlığı onların həyat eşqini artırır, özünə inamı yüksəldir. Sözün qüdrəti onları yenidən həyata qaytarır**

Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, birinci qrup əlil, dəfələrlə yaradıcı əlillərin respublika müsabiqələrinin qalibi və diplomçusu Ofelya Mədətqızının bu günlərdə işıq üzü görən altıncı-"Mən səni özümə qaytaracağam" kitabı sanki Sözün müəllifə etirafıdır. Söz, ədəbi yaradıcılıq, gərgin zəhmətin poetik bəhrəsi Ofelyanı özünə qaytardı. Bir-birindən maraqlı altı kitab - oxucularla altı görüş, taleyüklü ədəbiyyatsevərlərlə dərdlərini bölüşmək, mən deyərdim, birinci qrup əlil üçün böyük hünərdir.

İş elə gətirdi ki, Ofelyanın bu sonuncu, 25 çap vərəqi həcmində nəfis tərtibatla nəşr olunan kitabının redaktəsini mən etməli oldum. Birgə iş müddətində bu zərif qadını yenidən kəşf etdim. Onun bir müəllif - mənəvi "övladlarının" cəfakeş anası kimi qətiyyətinə, əməksevərliyinə, yorulmazlığına heyran qaldım. Hər bir yazının, hər bir sözün



nazını çəkmək özü bir qəhrəmanlıqdır.

Kitabın birinci və ikinci fəsilləri müəllifin tale yazıları, ölümlə çarpışan zaman sözlən və qələmdən imdad diləməsi, söz meydanında özünü tapması və təsdiqi ilə bağlı yazılarla yadda qalır. "Acı taleyim", "Acı olduğu qədər də şirin ömrüm", "Allahım, bəxt qapımı aç", ayaqlarında çürümə gedən zaman qələmə aldığı "Taleyim mənim" publisist və poetik yazıları oxucuya ibrətamiz keyfiyyətlər aşılayır. "Atasız, anasız illərim" fəslindəki publisist yazıları bu cəfakeş insanın özünün təzadlarla dolu anlarını göz önündə canlandırır.

Bu ağrılı-acılı illərdə söz adamları Ofelya Mədətqızını tək qoymadılar. Elə onlar da sözlə onun yaralarına məlhəm çəkdilər. Elə məlhəm ki Tanınmış yazıçı-jurnalisi Nüşabə Əsəd Məmmədlinin "Mübariz qadın", əməkdar jurnalist Qərib Mehdinin "Acıların acığına", "Taleyin "mat!" təklifi ilə barışmayan şair xanım", mərhum yazıçı-jurnalist Sabir Hacıyevin "Yaşamaq eşqi", yazıçı-jurnalist Rəfiqə Sadıqovanın "Zərif çiçəyin təravəti", filologiya üzrə fəlsəfə doktoru Ruziyə Quliyevanın "Alın yazısı" publisist qeydləri O.Mədətqızının qəmli anlarında ona dayaq olmuşdur. Həmin gərgin, üzüntülü anlarda söz adamları - Bəhmən Vətənoğlunun, Mikayıl Yanarın, Aləmzər Əlizadənin, Aydın Murovdağlının, Bahadur Fərmanın və başqalarının müəllif haqqında qələmə aldıqları yazıları bu fəsildə yer tutmuşdur.

Müəllifin bir əlində qələm, bir əlində dava-dərman yaşadığı günlər arxada qalmış, Sözlə əbədi dostluğu möhkəmlənmişdir. O.Mədətqızı bir-birindən maraqlı, məzmunlu şeirlər, hekayələr müəllifi kimi ədəbiyyat aləmində özünü təsdiq etdikdən sonra dönüb geriyə baxmış, ona dayaq olanlara öz ehtiramını bildirmək üçün bu dəfə publisistikaya müraciət etmişdir. Publisist Sözün qüdrəti ilə Nüşabə Əsəd Məmmədli, öz ləyaqəti və fəaliyyəti ilə seçilən qələm əhli, ictimai xadim Qənirə Paşayeva, Qərib Mehdi, Sabir Hacıyev, Bəhmən Vətənoğlu, Xəzangül, Rəfiqə Sadıqova, Bahadur Fərman, Aləmzər Əlizadə, həkim-yazar, xeyriyyəçi Hacıxanım Azadə-Taleh Abbasqızı, "Kitab evi" İB-nin sədri Hacıxanım Salatın Əhmədova, yazıçı-publisist Ümbülbanu və onlarla başqaları




publisist yazıları, şeirlərilə öz ehtiramını bildirmişdir.

Digər fəsillərdə müəllifin şeirləri, rübai və poemaları cəmlənmişdir. Ofelya Mədətqızı bu kitabında özünü əsl söz adamı, istedadlı qələm sahibi kimi təsdiqləyir və sözün insan taleyində müqəddəs bir varlıq olduğuna oxucuda inam oyadır.

İstər O.Mədətqızının yeni - "Mən səni özümə qaytaracağam" kitabını redaktə edərkən, istərsə də bu sətirləri yazarkən böyük mütəfəkkir Publilius Sirusun "Allah dolu əllərə deyil, təmiz əllərə baxır" fikri məni rahat buraxmırdı. Bu, doğrudan da belədir!.. Ofelyanın həyat yolu məşəqqətlərlə təzad yaradır. Mən bu gün çox qələm sahibi tanıyıram, firavan həyatın, sağlam canın sahibi olsa da, mənən xəstədir, qarşılaşanda, məcburən söhbətləşəndə adamda ikrah oyadır Lakin Ofelya Mədətqızı ilə tanışlığımın hər anında məndə, eləcə də onu tanıyanlarda nikbinlik əhval-ruziyyəsi oyadır. Aadm bu cılız, əlil bədəndəki böyük həyat eşqinə, insanlara xeyirxahlıq oyadan, ləyaqət və yazıb-yaratmaq hissinə böyük rəğbətlə yanaşmaya bilmir. Ofelya I qrup əlildir!.. Bu sözü deməyə dilim gəlmir. Çünki o, ən sağlam insanlardan mənən sağlam və qüvvətlidir. Nə gizlədim, onunla görüşən, söhbətləşən hər kəs, öz məni qarşısında nə qədər aciz olduğunu dərk edir və mənən saflaşır. O, ən çətin məqamlarda həyata nikbin baxışı, mübarizəsi və həyat eşqi ilə çoxlarından fərqlidir, özəldir. Mənə elə gəlir ki, ulu Tanrı əlilliyi Ofelyaya sonradan, ona görə bəxş edib ki, mənən zəlil olan adamlara təlqin etsin ki, dünya yaxşı insanlara və halal sözlə dolu ürəklərə möhtacdır. Sonuncu kitabının adında deyildiyi kimi, Söz onu özünə qaytarmışdır.

O.Mədətqızını oxucuları ilə altıncı dəfə mükaliməyə dəvət edən "Mən səni özümə qaytaracağam" kitabının ədəbiyyat aləminə gəlişi münasibətilə təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları diləyirik!.

***P.S. şənbə günü Beynəlxalq Mətbuat Mərkəzində Ofelya Mədətqızının yeni kitabının təqdimatı keçiriləcəkdir. Saat 12:00-da keçiriləcək bu tədbirdə arzu edənlər iştirak edə bilərlər.***

**Füzuli RÜZİGAR**